# Həyatımın Qəşəm İsabəyli güzgüsü



**Şəddat CƏFƏROV**

*“Bakı mətbəəsi”nin direktoru, Respublikanın ilk poliqrafçı alimi, iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru, Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü*

**İnsan həyatının elə tərəfləri var ki, həmişə qaranlıq qalır. İnsanın bu qaranlıq qalan tərəflərini özündən başqa kimsə görmür. Əsil sənətkar, yaradıcı o şəxsdir ki, müşahidəsi ilə fantaziyasını birləşdirir, mənəvi olaraq tədqiqata cəlb etdiyi şəxsi həyatdakı dolğunluğu ilə yazıya gətirməyə çalışır.**

Yazıya gətirmək deyəndə biz hər hansı bir müəllifin həyatda gördüklərinin yazıda necə əks etdirilməsini təsəvvür edirik.

Bu gün Azərbaycan ədəbiyyatında kifayət qədər müşahidə imkanları geniş olan yazıçı-publisistlər nəsli yetişməkdədir. Məxsusi olaraq yeni nəsli təmsil edən qələm sahibləri yox yerdən boy göstərə, pərvəriş tapa bilməzdilər. Onlar əslində özündən əvəlki nəsillərin yaratdığı ənənələri yaşatmaqla, müxtəlif yaradıcılıq üslublarını mənimsəməklə, öyrənməklə formalaşıblar. Şübhəsiz, yeni nəsil yazarların özünüifadə imkanlarına təsir edən ustad sənətkarlarımız sırasında Qəşəm İsabəylini də ön sırada görürəm. Fürsət düşmüşkən, burada Qəşəm İsabəyli haqqında bir neçə kəlmə də indiyəcən dediklərimə əlavə etmək istərdim.

Heç kim dana bilməz ki, Qəşəm İsabəyli böyük söz adamıdır. Xüsusilə onun son dövr poetik yaradıcılığı həyat materialını müşahidə ilə özünün fəlsəfi baxışlarına qovuşdurmağın bəhrəsi olaraq araya-ərsəyə gəlir. Onu da qeyd edim ki, Qəşəm İsabəylinin uşaq həyatı ilə bağlı yaradıcılığı da çox zəngindir. Dərsliklərimizi onun çox dəyərli yazıları bəzəyir. Əgər belə demək mümkünsə, müstəqillik dövrünün uşaqları həm də Qəşəm İsabəylinin yaradıcılığından qidalanmaqla böyüyür. Doğrudan da, bu sənətkarın qəleminin məhsulu olan yaradıcılıq örnəkləri özünəməxsus dadı, tamı, təsir gücü olan mənəvi qidadır.

Onu da diqqətə çəkmək istərdim ki, Qəşəm İsabəyli həm də görkəmli naşirdir. Tarixin yeni dövrü başlayanda “Şirvannəşr” adlı bir nəşriyyat təsis etdi. Həmin nəşriyyat çox keçməmiş məşhur oldu, ölkədə tanındı. Görkəmli müəlliflər “Şirvannəşr”də çap olunmaq üçün onun iqamətgahına doğru yol saldılar.

Bu görkəmli naşirin, sənətkarın naşirlik istiqamətindəki fəaliyyətinə təvazökarlıqdan kənar olsa da, mənim də təsirimin olduğunu danmıram. Üstəlik, belə bir görkəmli naşirin yüksək hörmətini və nüfuzunu görməyimlə fəxr edirəm, qürur duyuram.

İndi yenə qayıdıram “Bu şəhər mənə gözdağı olub” kitabında yer almış və mənim də duyğularıma zaman-zaman təsir göstərən, həmişə diqqətimdə olan “Hər gün - iş... və ya bizim Şəddat müəllim” xatirə povestinə. Bir daha qeyd edirəm ki, bu əsərin uğuru dəqiq müşahidə olunan həyat materialına istinadən yazılması ilə bağlıdır.

Əsəri oxuduqca görürəm ki, müəllif sanki mənimlə birgə ilk gəncliyimdən üzü bəri, lap bir az da dəqiqləşdirsəm, uşaqlıq çağlarımdan bəri elə bil ki, həyatı mənimlə birgə addımlayıb. Əsərin həyatımla bağlı səhifələrini oxuduqca həmin günlərə xəyal məni təzədən qaytarır. Görürəm ki, müəllif bilgisinə güvənərək istedadı ilə hər kəsi razı sala biləcək təsvir yoluyla gedir. İsti, doğma təsvirlər məni öz cazibəsinə çəkir: “Özündən böyüklərin yanında işə başlayan, çiyinləri bərkiməmiş ağır yük altına girən, erkən yaşlarından evə qazanc gətirən, mətbəədə hamının sevimlisinə çevrilən və hamının məhəbbətlə “Şurik” deyə çağırdığı bir qarına ac, bir qarına tox yaşayan uşaq. Bu uşaq sanki bilirmiş hara gəlib; gündən-günə böyüməyə can atırdı. Bu böyümək yaşdan çox savadda, təcrübədə, yoldaşlıq münasibətlərində özünü göstərirdi. Harda öyrənməli bir şey vardısa, Şəddatı orada görərdin; hər gün hərəkət, hər gün iş, hər gün irəliyə doğru bir addım. Kimə sirr olsa da - “mən mütləq mətbəə direktoru olacam” arzusunu balaca Şəddat ürəyində pərvaz görədi. Bir yerdə işləyib, başqa yerdə gözü olmazdı. Harada işin çətini var, orada görərdilər onu... Xoşbəxtliyini də elə yan-yörəsində axtarardı... Hətta gedib əsgərliyini çəkəndən sonra da yenidən doğma kollektivə qayıtmışdı. Bir gün də xəbər tutdular ki, Şəddat qabağa çıxıb, pillə-pillə irəliləyir. Artıq bu, qarşısıalınmaz gediş idi; kağız sexi rəisi... texnoloq... baş mühəndis... mətbəə direktoru... elmi iş... poliqrafiya üzrə Azərbaycanın ilk alimi... Heç kim də buna təəccüb qalmadı. Axı bu gənc zəhmətiylə, sözəbaxımlığıyla, səmimi davranışıyla çoxlarına nümunə olmuşdu”. Bilərəkdən mətnin arasına müdaxilə etmirəm, çünki hər cümlə sanki mənim həyatımın dəqiq bir pilləsidir. Müəllif söz-söz, cümlə-cümlə irəlilədikcə mən də qayıtdığım ilk gənclik çağlarından üzü bəri elə həmin cümlələrlə gəlirəm, gözlərimin önündən həyatımın həmin çağları bir kino lenti kimi keçir.

Həyatı rahat yaşamaq olmur, görürsən ki, işlərinin rəvan getdiyi bir məqamda yeni maneələr yaranır. Mən çox görmüşəm ki, belə maneələr bacarığı, istedadı olan adamlar küsdürüb, onların əlini işdən soyudub, ruhdan düşüblər. Beləliklə, gələcəyin yaxşı bir mütəxəssisi öz işindən, gələcək uğurundan əl çəkməli olub.

Belə maneələri, çətin məqamları mən də az görməmişəm. Elə asanlıqla qarşıma kötük yomalayıblar ki, səbəbini heç özüm də bilməmişəm. Ancaq mən inadıma güvənərək öz inamımda sarsılmamışam. Bütün çətinliklərə dözmüşəm, sinə gəlmişəm.

Mən çətinliklərə dözüb fəaliyyətindən qalmayan adamların yolundan dönməməsini mübarizənin əsas uğuru hesab etmişəm. Qəşəm İsabəyliin xatirə povestində həyatımın belə məqamlarına da güzgü tutulub: “Bir zaman da gəldi ki, Şəddat Cəfərovun yolunun üstünə çıxmağa başladılar. Necə deyərlər, onu inkişafdan qoymaq istəyən məkrli insanların artıq səbri tükənmişdi; “bu kimdi ey, pulu yox, arxası yox... bizdən qabağa keçib!?” gözügötürməzliyi öz işini görməyə başladı... Amma Şəddat müəllim ona diş qıcırdanlara mübarizəyə girmədi; həyatın dolanbac uçuşlarında bərkimiş qanadlarına sığındı. Bu qanadlar onu Rusiyaya - Ulyanovsk şəhərinə apardı. Orada isə ona halal haqqını verdilər; daha məsul bir işə - baş direktorluq vəzifəsinə yüksəldi”.İndi yazıda oxuyanda yolu necə keçməyim kifayət qədər aydın görünür. Özüm də o yolu aydın təsəvvür edirəm, yaddaşıma gətirə bilirəm. Elə oxucuya da hər şey kifayət qədər məlum olur. Mən respublikadan getməyə bilərdim, yaradılan maneələr artıq əsəblərimə də təsir göstərirdi. O vaxtkı respublika rəhbərliyi Ulyanovsk şəhərinə getməyim üçün müsbət xasiyyətnamə verdi, mənə uğur dilədi. İşim də Rusiyanın bu qədim şəhərində uğurlu alındı.

O vaxt Leninin doğulduğu şəhərdə işləmək xüsusi bir nüfuz demək idi.

Qəşəm İsabəyli həyatımın həmin mərhələsini də izləyib. O vaxt Azərbaycandan gələn partiya, hökumət nümayəndələrinin həmin şəhərdə mənimlə görüşləri unudulmazdır. Onların bir çoxu fəaliyyətimin təqdir olunmasını görəndə respublikaya qayıtmağımı da təkid edirdilər: “Sonralar Azərbaycandan gedən partiya və dövlət adamlarını Şəddat Cəfərov rusların, ukraynalıların, tatarların arasında qazandığı şan-şərəfiylə peşman elədi. Bu dəfə onunla səmimi oldular; təcrübəsindən yararlanmaq arzusu oyandı ürəklərində. Bir gün də poliqrafçı alimi geri - vətənə çağırmağa başladılar. Üzüyola Şəddat bu çağırışa “hə” deməyə bilmədi.Bax, belə bir məqamda üzüzə gəldik...Bu günəcən də isti münasibətimiz davam edir; uşaqlarının toyunda olmuşam, oğlumun toyunda olub. Hətta həyatın ağır zərbələrini görmüş, sonradan taleyinə bəxtəvər günlər düşən anasının yasına da getmişəm”.Xatirə povestin səhifələrini keçdikcə bədxahlarımı kölgədə qoyan xeyirxahlarımı da görürəm. Onların isti, doğma münasibəti məni ruhdan düşməyə qoymurdu. Beləl追rindən biri də, əlbəttə, Qəşəm İsabəyli idi.

Qəşəm İsabəyli özü də bəzi şeyləri yazıb, ancaq mən özüm də etiraf edirəm ki, çətin məqamlarımda da onu yanımda görmüşəm. Ancaq o vaxt mən bilməzdim ki, bu cavan oğlan gələcəkdə dəyərli bir əsər üçün müşahidələr aparır, material toplayır. İndi həmin müşahidələri görmək qəlbimi fərəh hissi ilə doldurur: “Mən Şəddat Cəfərovu iş üstündə, toyda, yasda, dost-tanış arasında müşahidə eləmişəm. Tutduğu vəzifəyə baxmayaraq, bir də görərsən Şəddat müəllim mətbəəyə əlidolu gəlir. Bu nədir? Demə, sifarişçiyə 90 qramlıq ofset kağızı lazımmış... Və ya əlinə xətkeş alıb, kitabın karton üz qabığını ölçüb-biçən görərsən onu. Bütün bu işlərin öz fəhləsi olduğu halda sanki Şəddat müəllim ilk gənclik vərdişlərini unudacağından qorxurmuş kimi hər şeyi özü eləməyə çalışır. Deyirlər, məşhur Nobel də fəhlələrlə çiyin-çiyinə verməkdən çəkinməzmiş”.Qəşəm İsabəylinin yazdığı bu düşüncələri, ümumiyyətlə, həyat təcrübəsi kimi qeyrilərinin də yararlanmasını istərdim. Xüsusilə indiki dövrdə əsas işçi qüvvəsi ilə müdriyyət gərək öz arasında doğma münasibət yarada bilsin.

Həyat təcrübəsinin, həm də faydalı təcrübənin sözdə, ədəbiyyatda yer alması insanların həyatını daha da zənginləşdirir. Bu baxımdan Qəşəm İsabəylinin xatirə povesti təkcə mənim həyatımla bağlı deyil, həm də cəmiyyət üçün çox faydalıdır: “Hərə bir tale yaşayır. Adam var, tələbə yoldaşım, indi İqtisad universitetinin müəllimi işləyən Natiq Qurbanov demişkən, süpürülməmiş yerdən dava kağızı gəzir. Şəddat müəllim isə hər zaman davadan uzaq durub; heç vədə mənasız mübahisələrə vaxt itirməyib. Qarşısındakının haqlı, ya haqsız olmasına baxmayaraq, hər an onu güzəştə getməyə hazır görərsən. Onun hansı bürcdən olduğunu deyə bilmərəm, amma “şir”lərə xas bir ali keyfiyyəti var; ruzisinə göz dikənlərə çəpəki baxmadan, qismətindən nəfsini çəkib, başını geri çevirmədən, qalmaqallı yerdən uzaqlaşıb getməyi özünə arbilməyib.Biz naşirlər kimi də tanımasaq, illərlə ünsiyyətdə olduğumuz mətbəə rəhbərlərini yaxşı tanıyırıq. Şəddat müəllim kimi insaflısı isə indiyəcən qarşımıza çıxmayıb. O, kiminsə qazancına göz dikən deyil, kiməsə qazanc yolu göstərəndi. Bizim “Şirvannəşr” 15 il əvvəl Şəddat müəllimin baş direktor olduğu “Kommunist” nəşriyyatında çap etdirdiyi məşhur “Tar məktəbi” dərsliyinin çörəyini yeyir hələ də... “Allah bərəkət versin” alqışı demə bu imiş!”. İndi bu qeydləri oxuyanda qəlbim qürur hissi ilə çırpınır, sevinirəm ki, nə vaxtsa insanlar üçün faydalı olmağa çalışmışam. Üstəlik bu istək indi də mənim həyatımda davam edir. Bu gün də çətinə düşənlərlə çox ehtiyatlı davranıram. Onlara doğru-düzgün yol göstərməyə çalışıram. İnanıram ki, heç nə yaddan çıxmır, heç nə unudulmur.

Bilirəm ki, yaxşı olan, faydalı olan təkcə yaddaşda yaşamır, həm də Q.İsabəyli kimi sənətkarların yaratdıqları ilə əbədi həyata vəsiqə alır, əbədiyaşarlıq haqqı qazanır.

Mən yaxşı bilirəm ki, insanlar öz yerində olanda, imkanlarına uyğun bir sahədə çalışanda daha faydalı olurlar. Elə Q.İsabəyli də, zənnimcə, bu qənaətdədir: “Mərhum xalq şairi Qabil el məsəlinə çevrilmiş “Səhv düşəndə yerimiz” şeirini yazıb. Bu gün minlərlə vəzifə adamının səhv düşən yeri gözümüz qarşısındadır. Necə deyərlər, onlar da, nağıllarımızdakı kimi, atın qabağına ət, itin qabağına ot qoymaqla məşğuldu. Yalnız bildiyi işə ürək qızdıran Şəddat müəllim isə heç zaman vəzifə hərisi olmayıb. “İşsiz vaxtlarında - bir söhbətimizdə dedi - Sabir Rüstəmxanlı mənə nəşriyyat direktoru vəzifəsini təklif elədi. Mən mətbəə işçisiyəm, Sabir bəy, nəşriyyatın öz adamı var...” - dedim. Məni başa düşdü”.Erkən uşaqlığını, ilk gəncliyini, ahıllığını iş üstündə keçirən Şəddat müəllim rahatlığını da işdə tapan insanlardandır. Rəhmətlik naşir Əjdər Xanbabayev də beləydi. Həftənin hansı günü axtarsaydın Əjdər müəllimi nəşriyyatda tapardın. “Hər gün - iş!”i özünə həyat amalı seçən Şəddat Cəfərovdan ötürü bayram da işdi, istirahət də işdi, xoşbəxtlik də...”. Beləcə, həyatımın mənim üçün keçmişdə qalan, ancaq Qəşəm İsabəylinin xatirə povesti ilə bu günümüzə gəlib çatan və gələcəyə gedən çağlarını həzin duyğularla təkcə oxumuram, həm də gözlərimin önündən keçirirəm.

Qəşəm İsabəylinin xatirə povestinin sonluğu da portretin qabarıq cizgiləri kimi yaddan çıxmır: “Bu gün alim-poliqrafçı Şəddat müəllim əmək meydanındadır. Dəyərini bilənlər onu özlərinə yoldaş eləyib. Amma hayandasa Şəddat müəllimin layiq olduğu kürsüdə indi kimsə arın-arxayın əyləşib, özünü də o yerin əsil sahibi bilir. Gəl ki Şəddat Cəfərov hansı yerdə oturmasından asılı olmayaraq, bunun xiffətini eləməyib. Şükürlər olsun ki, indi də eləmir”. Beləcə, ayrıldığım bir zaman haqqında yazılmış əsər bitir. Doğrudur, əsərdə bəhs olunan zamandan sonra da fəaliyyətimdən qalmamaışam, yolumu davam etdirmişəm. Bəlkə bu qalan zamanı başqa bir Qəşəm İsabəyli yazıya alacaq.

İnanıram ki, hər bir oxucu bu əsərə görə Qəşəm İsabəyliyə ən hörmətli duyğuları ilə minnətdarlıq bildirəcək.

Zaman daha səbrlidir, hər şeyi öz vaxtında yerinə qoyur.

*05.11.2021*